## 192 Bakı şəhərinin Səbail rayonunda baş vermiş torpaq sürüşməsinin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci il martın 6-7-də Bakı şəhəri Səbail rayonunun Bayıl yamacında böyük ərazini əhatə edən sahədə iri miqyaslı torpaq sürüşməsi baş vermişdir. Sürüşmə nəticəsində həmin ərazidə yerləşən bir sıra sənaye və mülki binalar, o cümlədən fərdi yaşayış evləri dağılmış, mühəndis xətləri və avtomobil yolları ciddi zədə almışdır.

Hadisə baş verən ilk andan vaxtında görülmüş tədbirlər nəticəsində bu rayondan keçən elektrik, qaz, su və digər xətlər qabaqcadan bağlanmış, təhlükəli ərazidə yaşayan əhali köçürülmüş, bununla da insan tələfatının qarşısı alınmışdır.

Təbii fəlakətin nəticələrinin aradan qaldırılması və gələcəkdə belə hadisələrin vaxtında qarşısının alınmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın:

**Hökumət komissiyasının sədri**

Artur **Rasizadə** - Azərbaycan Respublikasının Baş naziri

**Hökumət komissiyası sədrinin müavinləri:**

Abid **Şərifov** - Azərbaycan Respublikası Baş nazirinin müavini
Rəfael **Allahverdiyev** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

**Hökumət komissiyasının üzvləri:**

Namiq **Nəsrullayev** - Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Əvəz **Ələkbərov** - Azərbaycan Respublikasının maliyyə naziri
Səfər **Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri
Ramil **Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri
Nadir **Əhmədov** - Azərbaycan Respublikasının rabitə naziri
Əhməd **Əhmədzadə** - Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri
İslam **Tağıyev** - Azərbaycan Respublikasının Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi sədrinin birinci müavini
Oqtay **Əsədov** - Abşeron Regional Səhmdar Su Cəmiyyətinin prezidenti
Müslüm **İmanov** - "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti
Əlixan **Məlikov** - "Azəriqaz" Səhmdar Cəmiyyətinin sədri
Aydın **Başirov** - Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi
Tələt **Məcidov** - Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı

2. Hökumət komissiyasına tapşırılsın:

təbii fəlakət nəticəsində evləri dağılmış ailələrin və qəza vəziyyətində olan evlərdə yaşayan əhalinin müvəqqəti yerləşdirilməsini təşkil etsin;

təbii fəlakət zonasının ətrafında yerləşən ərazidə elektrik, su, kanalizasiya, istilik, rabitə xətlərinin işə qoşulmasını, Bayıl yaşayış sahəsi ilə avtomobil yolu əlaqəsinin müvəqqəti sxem üzrə bərpasını təcili təmin etsin;

iki həftə ərzində fəlakət zonasında görüləcək bərpa işlərinin proqramını hazırlayıb Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

baş vermiş təbii fəlakət nəticəsində əhaliyə dəymiş zərərin məbləğini müəyyənləşdirib, onun müvafiq qaydada ödənilməsini təmin etsin;



müvafiq mütəxəssisləri cəlb etməklə torpaq sürüşməsinin baş vermə səbəblərini araşdırsın və gələcəkdə belə hadisələrin vaxtında qarşısının alınması üçün lazımi tədbirlər görsün;

torpaq sürüşməsinin nəticələrinin aradan qaldırılması işlərinin gedişi haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması üzrə işlərin maliyyələşdirilməsi və əhaliyə dəyən zərərin ödənilməsi üçün Azərbaycan Respublikasının 2000-ci il Dövlət Büdcəsinin ehtiyat fondundan 5,0 milyard manat məbləğində vəsait ayrılsın.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 7 mart 2000-ci il
№ 353

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1131-1133.